

*Azərbaycan xalqının qədim tarixə, zəngin keçmişə malik, dünya şöhrətli muğam və musiqi sənəti vardır. Köklü-köməcli, salğarlı-samballı muğamlarımızın hər şöbəsi mən deyərdim ki, bir simfoniyaya bərabərdir. "Rast", "Şur", "Segah", "Bayatı-Şiraz", "Çahargah", "Bayatı Kürd"ü kimi muğamlar milli musiqimizin ən qiymətli xəzinəsi, onun "Qızıl fondu" hesab etmək olar.*

*Xalq muğamlarımızın Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, İslam Abdullayev, Bülbül, Zülfi Adıgözəlov, Əbülfət Əliyev kimi mahir ifaçıları olmuşdur.*

*Müasir muğam ustalarından Arif Babayev, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov, Qədir Rüstəmov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Qəndab Quliyeva və başqaları muğam sənətimizi sevə-sevə, oxşaya-oxşaya yaşadırlar.*

"Spase" telekanalı muğamlarımızın təbliği yolunda çox önəmli və xeyirxah işlər görür. Buna əyani sübut Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyi ilə əlaqədar "Spase" telekanalının keçirdiyi muğam müsabiqəsidir.

Ümummilli liderimiz H.Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə həmişə mədəniyyətə, incəsənətə, sənətə və sənət adamlarına yüksək qiymət vermiş, qayğı və diqqət göstərmişdir. Bu gün onun layiqli varisi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu, dövlətçilik ənənələrini uğurla davam etdirir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoş məramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun Sədri, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin Deputatı Mehriban xanım Əliyeva da mədəniyyətimizin, klassik muğamlarımızın, mədəni irsin qorunub saxlanmasına xüsusi qayğı və diqqət göstərir.

Məni bu gün narahat edən, düşündürən indiki müasir gəncliyin öz milli musiqimizi qoyub, xalqımıza, mentalitetimizə tamam yad olan xarici estrada musiqisinə, Avropa mədəniyyətinə meyl göstərməsidir. Toylarımızda xarici musiqi alətləri meydan sulayır. Nədənsə öz kökümüzdən ayrılıb yad təsirlərə uymuşuq. Bayağı, mənası başa düşülməyən avropasayağı mahnılar və musiqilər məclislərdə baş alıb gedir. Nə irad tutan var, nədə ki, narahat olan. Üzdəniraq musiqiçilər heç kimdən, heç nədən çəkinmədən asan yolla pul qazanırlar. Sənəti, mədəniyyəti, incəsənəti ucuzlaşdırırlar.

Müasir gənclik öz musiqimizi qoyub xaricin rok, rep, rop musiqilərinə aludə olublar. Xarici estrada musiqisi hara, özümüzün qəlboxşayan, könülaçan musiqimiz hara? Musiqimiz və muğamlarımız ana laylası kimi bizə əziz və doğmadır. Heç kəs yeniliyin əksinə deyil, müasir musiqi növlərindən də bəhrələnmək lazımdır. Ancaq bu cür kor-koranə yox. Aydan arı, sudan duru musiqimizi və mədəniyyətimizi yad təsirlərdən qorumaq hamımızın borcudur.

Bunu bizdən dahi bəstəkarımız, milli musiqimizin banisi Üzeyir Hacıbəyovun müqəddəs ruhu tələb edir.

Azərbaycanın bir-birindən gözəl və oynaq rəqsləri olan "Yallı"nı, "Cəngi"ni, "Vağzalı"nı, "Tərəkəmə"ni, "İnnabı"nı, "Nəlbəki"ni, "Turacı"nı yaddan çıxarmağa, unutmağa heç birimizin mənəvi haqqı yoxdur. Unutsaq, bu ən azı insafsızlıq, nankorluq, öz milli mənşəyinə, soyuna, kökünə hörmətsizlik olardı. Ancaq, bu xalqdan olub, öz millətini bəyənməyən "centlemenlər" "Yallı"mızı "Hopstop"la əvəz ediblər. "Azərbaycan təranələri", "Uzundərə", "Atdandırma", "Qazağı", "Qaytağı", "Cəngi", "Heyvagülü" kimi oyun havaları onların xoşuna gəlmir, zövqünü oxşamır.

İndiki gənclər arasında Qərb musiqisinə aludə olanlar, ona saatlarla qulaq asmaqdan doymayanların sayı gündən-günə artır. Son vaxtlar caz alətləri moda minibdir. Müasir gənclik keçmişi yaxşı bilmir. Sazın, tarın, kamananın, qara zurnanın bizim lap qədimdən milli musiqi alətlərimiz olduğunu bilmirlər. Toy məclislərində gənclərin Qərbin estrada və caz musiqilərini sifariş verməleri, rokn-rola oynamalarına nə ad vermək olar?

Mən bu yaxınlarda şəhər toylarının birinə dəvət almışdım. Musiqiçilərin yanında saz və qara zurna olsa da onların heç birini məclis boyu dilləndirən olmadı. Bu mənə yaman pis təsir bağışladı. Sazdan və qara zurnadan üz döndərmək mən elə bilirəm milli məhvərdən uzaqlaşmaq de-

məkdir.

Dədə Qorquddan üzübəri sazın ecazkar, ovsunlu havası hamının ruhuna-canına hopmuş, iliyinə, qanına keçmişdir. "Kərəmi", "Ruhani", "Dilqəmi", "Zarıncı", "Yurd yeri", "Sarıtel", "Cəlili", "Misri", "Qaraçı", "Qəhrəmanı", "Dübeyti" və başqa havalar üstə köklənən telli saz zaman-zaman toy-mağarlarımızın, şənliklərimizin bəzəyi, yaraşığı olmuşdur.

İndiki gənclər arasında sazı, aşığı bəyənməyənlər, ozan sənətini duymayanlar da az deyildir. Onlar Dədə Qorqud, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasımı, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir kimi görkəmli aşıqların sənətinə görəsən niyə ögey və biganə münasibət bəsləyirlər?

Ta qədimdən elmizin-obamızın toy-düyünə sədaqətlə xidmət edən, tarixin sınağından, zamanın keşməkeşlərindən keçə-keçə bu günümüzə çatan milli musiqi alətlərindən biri də qara zurnadır. Onun səsində nəsə bir həzinlik, qəhrəmanlıq və ruhlandırmaq hikməti var. Sirli-sehrli qara zurnanın könül oxşayan sədasında xalqımızın çox əsrlik qəhrəmanlıq tarixi, mədəniyyəti, mənəviyyatı, sevgisi, məhəbbəti yaşayır. "Qəhrəmanı", "Koroğlu cəngisi", "Güləşəngi", "Ruhani", "Tərəkəmə", "Cıdırhəngi", "Atdandırma", "Dirədöymə" kimi qədim havalar bu musiqi aləti ilə daha coşğun və məlahətli səslənir.

Lakin toylarımızda sazın və qara zurnanın az-az görünməsi, arxa plana keçməsi məni bir mədəniyyət işçisi kimi narahat edir. Çünki saz və qara zurna milli psixologiyamıza qədimdən daxil olmuş, bizim üçün ana laylasına çevrilmişdir.

Bizim Qazağın İncə dərəsində Aslanbəyli, Qaymaqlı, Kəmərli kəndləri xalqımızın qədim adət və ənənələrini indiyə qədər qoruyub saxlayıb.

Bu elin-obanın toy məclislərini, el şənliklərini sazsız, zurnasız təsəvvür etmək qeyri-mümkündür.

Əsrlər boyu yaşayan muğamlarımızı, musiqimizi, mədəniyyətimizi, incəsənətimizi hamımız bir nəfər kimi göz bəbəyi kimi qoruyub saxlamalıyıq.

Milli musiqi alətlərini təbliğ etmək, toy-mağarların bəzəyinə çevirmək, onu gənc nəslə sevdirmək bu gün ən vacib, ən önəmli işlərdən biridir. Xalqın milli adət-ənənələrini, tarixini, mədəniyyətini, incəsənətini qoruyub saxlamağı, yaşatmağı, urvatlı tutmağı bizim əcdadlarımız, ulu babalarımız bizlərə vəsiyyət etmişdir. Müqəddəslərin vəsiyyətinə əməl etmək xalq şairi, sənət peyğəmbərimiz böyük Səməd Vurğun demişkən; "Bizdən ayrı düşənlərə, Borcumuzdur bu ehtiram!".

**Kazım KAZIMLI,**

***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Qazax rayonu